# MİLLİ POEZİYAMIZIN SƏMƏD VURĞUN UCALIĞI

Xalqımız XX əsr Azərbaycan poeziyasının əfsanəsi sayılan Xalq şairi, akademik Səməd Vurğun Yusif oğlu Vəkilovun anadan olmasının 120 illik yubileyini onun xatirəsinə sonsuz ehtiram və irsinə yeni bir maraq göstərməklə qeyd edir. Bu barədə Prezident İlham Əliyevin sərəncamı şairin irsinə yüksək qayğının, dəyərin növbəti nümunəsi kimi ədibin həyat və yaradıcılığının yenidən və dərindən öyrənilməsinə və yeni nəsillərə tanıdılmasına xidmət edir.

Çağdaş ədəbiyyatşünaslığımızın sənət və sənətkara zaman ucalığından baxışı göstərir ki, Səməd Vurğun milli poeziyamızda fəth etdiyi zirvə mövqeyini XXI əsrdə də qoruyub saxlayır, ədəbi məktəb rolunu davam etdirir. Bu gün Azərbaycan ədəbiyyatşünaslığına, ötən əsrin ədəbiyyatına hansı yöndən baxsaq, Səməd Vurğun dahiliyi öz ucalığı ile görünür.

Vəkilovlar nəslinin görkəmli nümayəndəsi olan Səməd Vurğunun həm də Molla Pənah Vaqiflə qohumluq bağları var. Şairin ana nənəsi Molla Pənah Vaqifin nəslindən olub və şairin yaradıcılığında belə bir rişədən, kökdən gələn poetik yük, poetik irs də var. Mənsub olduğu Vəkilovlar nəsli isə, ümumiyyətlə, Azərbaycan tarixində önəmli mövqeyi ilə seçilir. Bu nəsil bizim ədəbiyyatımız və tariximiz üçün önəmli insanlar yetirib. Səməd Vurğun isə Vəkilovlar nəslini Azərbaycan ədəbiyyatı kontekstində zirvəyə qaldırdı.

Əgər ondan əvvəl Vəkilovlar nəsli daha çox tarixi, ictimai səhnədə görünürdüsə, Səməd Vurğun bu zirvəni ədəbiyyata da gətirdi. Sonradan həmin zirvəni Səməd Vurğunun öz övladları davam etdirdilər. Bu gün də həmin nəslin nümayəndələri Azərbaycanın ictimai, siyasi həyatında fəallığı ilə tanınır. Həmin nəsildən olan hüquqşünaslar, musiqiçilər hazırda da öz fəaliyyətləri ilə Azərbaycan ictimai, mədəni həyatına öz töhfələrini verirlər. Bu baxımdan Səməd Vurğunun nəticəsi Vurğun Vəkilovun fəaliyyətini xüsusi qeyd edə bilərik.

Qazax mühiti bildiyimiz kimi, saz, söz, sənət mühitidir. Səməd Vurğunun ana babası da şair olub. Vəkilovlar nəslində də sözə, saza xüsusi məhəbbət olub, şairin öz atası Yusif bəy də çox gözəl saz ifaçısı olub. Belə bir mühitdə böyüyən Səməd Vurğun təbii ki, poeziya ilə, sənətlə qidalanan bir ruha malik idi. Səməd Vurğun elə bir zirvədir ki, onun ədəbi şöləsi həm özündən əvvəlki, həm də sonrakı ədəbi irsimizə işıq salır. Qüdrətli şairin poeziyasının rişələri iki mənbədən qidalanır: həm xalq şeirindən, xalq ruhundan, rəvanlıqdan, folklor motivlərindən, həm də fəlsəfədən.

Səməd Vurğun xalq şeirinin rəvanlığını, aşıq şeirinin o gözəlliyini, ürəyəyatımlılığını, duyğularını gətirib fəlsəfə ilə birləşdirir. Və bu iki qovuşma nöqtəsində yaranan və xalq şeiri ilə müasir poeziyanın sintezi olan Səməd Vurğun poeziyası məhz bu səbəbdən bu gün də sevilir. Onun poetik irsi bu xalqın aşıq sənətinə də, muğam irsinə də, klassik bəstəkarlıq məktəbinə də doğma idi. Səməd Vurğunun poetik dilindəki rəvanlıq, şeirlərindəki dərin mənalar həm müasir musiqi, həm də klassik musiqi kontekstində özünü tam şəkildə tapa bilirdi.

Ümumiyyətlə, Səməd Vurğunun özü də bir xalq adamı idi, xalqın sevimli övladı idi. Onun sadə insanlarla görüşləri, ovçuluq sərgüzəştləri, Azərbaycanın ən ucqar bölgəsində belə insanların ona qeyri-adi məhəbbəti ilə bağlı müxtəlif əhvalatlar, əfsanələr bu gün də dolaşmaqdadır. Səməd Vurğun xalqın içindən çıxan, xalqın ruhunu dərindən bilən və həmin xalqın ruhunu müasir notlarda səsləndirə bilən bir şair idi.

Xalq şairinin dillər əzbəri olmuş "Azərbaycan" şeiri yurdumuzun poetik xəritəsidir. Bir şeir çərçivəsində şair Azərbaycanın həm həmin dövrdəki obrazını yaradıb, həm gələcəyinə işıq tutub, həm də ana yurdun tarixinə ekskurs edib. "Azərbaycan" şeiri sadə ifadələrlə çox dərin mənaların ifadə edildiyi poetik nümunədir. Səməd Vurğun Azərbaycan dilinin, bugünkü Azərbaycan dilinin əsas banilərindən biridir.

XX əsrin əvvəlləri, 1920-10-cu illər Azərbaycan dilində fərqli, müxtəlif əsintilərin olduğu məqam idi. Həmin dövrdə və daha öncədən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" məktəbi, Əli bəy Hüseynzadə "Füyuzat" məktəbi var idi. Bolşevik işğalından sonra rus sözlərinin bizim dilimizə süni şəkildə daxil edilməsi, zorla pərçim edilməsi prosesi sürətləndi. Bu baxımdan Səməd Vurğun əsərlərini təmiz, xalq dilinə yaxın Azərbaycan dilində yazırdı və onun əsərlərində əks olunan dil sonradan müasir Azərbaycan ədəbi dilinin bazisi oldu. Məhz həmin bu poeziyadan keçən dil bu gün bizim istifadə etdiyimiz ədəbi dildir.

İstənilən sənətkar öz zamanının yetirməsidir. Amma Səməd Vurğun yaradıcılığında elə məqamlar var ki, onu çağdaşı olduğu zamanın məngənəsindən, əhatəsindən çıxara bilir. Son zamanlar Səməd Vurğun şəxsiyyəti, yaradıcılığı ilə bağlı müzakirələr yenidən ədəbi gündəmdədir. Xalq şairinin irsinə və özünə yönəlmiş neqativ məqamlara şairin öz ədəbi irsi tutarlı cavabdır. Səməd Vurğun bütün yönləri ilə xalqına, öz türk kökünə bağlı bir şəxsiyyət olub.

Dahi sənətkar sovet dövründə yazılmış elmi araşdırmalarda qeyd edildiyi kimi, "marksizm-leninizm estetikasına söykənən", "sovet həqiqətini əks etdirən", ilk baxışdan sırf kommunist ideologiyasını təbliğ edən əsər təsiri bağışlayan "Komsomol" poemasının belə alt qatları, misraları arasından bu vətən, türklük sevgisi süzülür. "Türk" sözünün tabuya çevrildiyi, rus dilinin geniş təbliğ edildiyi zaman Səməd Vurğun "Komsomol" poemasında yazırdı:

Nədən söyləməsin ana dililə
Öz odlu nitqini yoldaş komissar?
Türkcə danışmasın sevgilisilə...
Bu mənhus adətdə böyüklükmü var?
Məndən inciməsin yoldaş komissar!

Qeyd etdiyimiz dövrdə bu misraları yazmaq sənətkardan böyük cəsarət tələb edirdi. Yenə həmin əsərdə şair Humaydan bəhs edərkən maraqlı milli-etnoqrafik məqamlara toxunur. Belə ki, əsərdə Sovet dönəmində qadağan edilmiş "Novruz" bayramı ilə əlaqəli inanclar, mərasimlər təsvir edilir. Səməd Vurğunun böyüklüyü məhz bu cür məqamlarda, ölüm hökmü ehtimalı altında sətiraltı da olsa öz fikrini gələcək nəsillərə çatdırmaq cəsarətində zühur edir.

Bu gün Səməd Vurğunun yaradıcılığının köhnəldiyini, sırf sovet hökumətinin tərənnümünə həsr olunduğunu demək, ədəbiyyata dar kontekstdə baxışın nəticəsidir. Çünki əsərə hər hansı zamanın kontekstində yox, zamanın fövqündə baxmaq lazımdır. Bu gün yenidən biz sovet dövründə yazılan əsərlərə fərqli baxışla baxaraq həmin əsərlərin içində bolşevik əsarətinə işarə edən sətiraltı məqamlar görürük. Bu əsərləri yaradan insanlar, mütəfəkkirlər başa düşüblər ki, biz əsarətdəyik. Amma bunu açıq dilə gətirmək birbaşa ölüm demək idi.

Ötən əsrin 30-cu illərinin repressiyası bizim ədəbiyyatımıza, tariximizə, mədəniyyətimizə, ictimai-siyasi fikrimizə çox böyük zərbə vurub. Həmin dövrdə repressiya olunan ictimai xadimlər, yazıçılar, şairlər əgər repressiya olunmasaydılar, biz indiki inkişafımızı 100 il qabaqlaya bilərdik. Və bu yöndən baxanda, bəlkə də Səməd Vurğunu Allah repressiyadan kənarda saxlayıb. O da XX əsr ədəbiyyatımızı zənginləşdirmək missiyasını yerinə yetirib. Bəlkə də, Səməd Vurğunun çəkdiyi əzablar onun ömrünü tez sonlandırdı.

"Vaqif" dramı ilə bağlı ona Stalin mükafatı verilib. Əslində isə "Vaqif" dramında Səməd Vurğun mətnin üst qatında sovet ideologiyasına uyğun bir əsər yaratsa da, alt qatda istibdada, repressiyaya etiraz edirdi. Fikrimizcə, "Vaqif" dramının alt qatında Qacar Stalinin, Vaqif isə repressiya olunmuş şair və yazıçıların ümumiləşdirilmiş obrazı idi. Və həmin əsərdə Vaqif həm də Səməd Vurğunun öz obrazıdır.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında şair obrazı yaratmaq istəsək, Səməd Vurğun istər ədəbiyyatdakı mövqeyi ilə, istər sanbalı ilə, ağırlığı ilə o obrazı tam şəkildə ifadə edə, arxetip səviyyəsinə qaldıra bilər.

***Qaragözova Elnarə,***
***filologiya üzrə fəlsəfə doktoru***